**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**"SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**

# M Ə L U M A T  M Ə K T U B U

**Hörmətli həmkarlar!**

Sizi 22-23 may 2025-ci il tarixlərində Sumqayıt Dövlət Universiteti, Malatya Turqut Özal Universiteti və Oş Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Sumqayıt Dövlət Universitetində keçiriləcək "Türkdilli dövlətlərin iqtisadi resurslarından səmərəli istifadənin aktual problemləri" mövzusunda I Beynəlxalq elmi konfransda iştirak etməyə dəvət edirik.

Konfransda enerji təhlükəsizliyi və enerji dəhlizlərinin idarə edilməsində Türkdilli dövlətlərin əməkdaşlığı, təbii sərvətlərdən istifadənin dayanıqlı inkişaf strategiyaları, yaşıl iqtisadiyyatın strateji davamlılıq çərçivəsinə inteqrasiyası, Türkdilli dövlətlər arasında xarici ticarət dövriyyəsinin artırılması, birgə maraq kəsb edən istiqamətlər üzrə fəaliyyətin genişləndirilməsi və s. ilə bağlı geniş fikir mübadiləsi nəzərdə tutulur.

**Konfransın bölmələri:**

1. Enerji təhlükəsizliyi və logistik dəhlizlər vasitəsilə türkdilli dövlətlərin əməkdaşlığı
2. Türkdilli dövlətlərin təbii sərvətlərindən istifadənin dayanıqlı inkişaf strategiyaları
3. Yaşıl iqtisadiyyatın strateji dayanıqlığa inteqrasiyası

**Konfransın işçi dilləri:** azərbaycan, ingilis, türk, rus, qırğız

**Konfransın formatı:** əyani və ya onlayn - əlavə olaraq məlumat veriləcəkdir.

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər:**

| | |
|---|---|
| Kağızın ölçüsü | – *A4* |
| Boş sahə | – *hər tərəfdən 2 sm* |
| Şrift | – *Times New Roman* |
| Şrift ölçüsü | – *12 pt* |
| Düstur | – *Microsoft Equation* |
| Sətirarası interval | – *1,15 sm* |
| Abzas | – *1,25 sm* |
| Məqalənin adı | – *ortadan, böyük hərflərlə, qalın şriftlə* |
| Müəllifin adı, soyadı, atasının adı | – *ortadan, qalın şriftlə* |
| İş yeri, şəhər, ölkə | – *ortadan, kursivlə* |
| E-poçt ünvanı | – *ortadan, kursivlə* |
| Açar sözlər (5–7 söz) | – *Azərbaycan, ingilis, türk, rus və qırğız dillərində* |
| Xülasə (60–80 söz) | – *məqalənin yazıldığı dildən başqa iki dildə* |
| Həcmi | – *5 səhifəyə qədər* |
| Ədəbiyyata istinadlar | – *kvadrat mötərizədə* |
| Ədəbiyyat siyahısı | – *əlifba sırası ilə* |

Konfransın materialları **Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemində yoxlanıldıqdan sonra **"SDU.Konfrans materialları"** toplusunda

dərc olunaraq, https://www.ssu-conferenceproceedings.edu.az, https://www.sdu.edu.az saytlarında və **eLibrary.ru** məlumat bazasında yerləşdiriləcəkdir (beynəlxalq seriya nömrələri: **İSSN 2708-955X print, İSSN 2709-6033 on-line**).

Materiallar **01 may 2025-ci il** tarixinədək economy.conference@sdu.edu.az elektron poçtuna və ya əyani olaraq elektron daşıyıcılarda və çap olunmuş formada aşağıdakı ünvanda qəbul olunur: *AZ5008, Sumqayıt şəhəri, 43-cü məhəllə, Bakı küçəsi 1, Sumqayıt Dövlət Universiteti (I tədris korpusu), İqtisadiyyat və idarəetmə fakültəsi, Biznesin idarə edilməsi kafedrası (otaq 411).*

**Təşkilat komitəsi tezislərin və məqalələrin konfransın proqramına daxil edilməsi hüququnu özündə saxlayır.**

**Məsul katib:** dos. Qalib Hüseynov
**Əlaqə telefonları**: *(+994018) 64215 06 (109), (+99450) 752 22 91*

***Təşkilat komitəsi***